*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 121-126*
*https://doi.org/10.59849/2663-4406.2024.1.121*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Cəmşid Əmirov detektiv nəsrin nümayəndəsi kimi

**Seyidnisə Lətifli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: seyidnise.letifli@mail.ru

**Annotasiya.** Dünyada mövcud olan əksliklər daim vəhdət halındadır. Bütün əksliklərin əsasını xeyir və şər qüvvələri təşkil edir. Bəşəriyyətin təməli qoyulandan bəri cəmiyyətdə xeyir və şər qüvvələr arasında mübarizə olmuşdur. Bu mübarizə universal xarakter daşımış və hər bir sivilizasiyada hakim mövqedə dayanmışdır. Xeyirin şər üzərində qələbəsi, ədalətin hər zaman bərqərar olması, məntiqi düşüncə ilə hadisələr zəncirinin qırılması, cinayət və cinayətin izlərinin araşdırılması, cinayətkarın tapılaraq cəzasının verilməsi və s. kimi süjetlər fərqli dövrlərdə ədəbi nümunələrdə mövcud olmuşdur. Zaman keçdikcə müxtəlif yazıçılar həm ədəbi mirasa söykənərək həm də bu süjetləri şaxələndirərək yeni istiqamət yaratmağa başladılar. Nəticədə, detektiv ədəbiyyat formalaşmağa başladı.
Azərbaycan ədəbiyyatında detektiv nəsrin əsası Cəmşid Əmirov tərəfindən qoyulmuşdur. Görkəmli ədib Cəmşid Əmirovun bu istiqamətdə yazmış olduğu bədii əsərlər dövrünün mühüm hadisəsinə çevrilmişdir. Yazıçı əsərlərində obrazların davranışı və danışıq tərzi ilə həyat həqiqətini, onların xarakterlərini məharətlə göstərmiş, onları düşündürən məsələləri cəsarətlə ortaya qoymuş, problemə baxış və konsepsiyalarını obrazlar vasitəsilə cəmiyyətə çatdırmışdır. O, detektiv nəsrin bir-birindən fərqli və özünəməxsus süjetlər əsasında qurulmuş bədii nümunələrini ərsəyə gətirmişdir. Bu əsərlər vahid mövzu və ideya-məzmuna bağlı olub orijinal bədii üslub xüsusiyyətlərinə malikdir.
Məqalədə Cəmşid Əmirovun Azərbaycan ədəbiyyatında tutduğu mövqe, yaradıcılığının başlıca istiqamətləri, əsərlərinin üslubi xüsusiyyətləri, mövzu və ideyası kimi məsələlər tədqiq olunmuşdur.
**Açar sözlər:** yazıçı, detektiv, nəsr, xüsusiyyət, ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 12.01.2024; qəbul edilib – 26.01.2024

# Jamshid Amirov as a representative of detective prose

**Seyidnise Letifli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: seyidnise.letifli@mail.ru

**Abstract.** The opposites that exist in the world are always in a state of unity. The basis of all contradictions is the forces of good and evil. Since the foundation of mankind, there has been a struggle between good and evil forces in society. This struggle was universal and dominated every civilization. The victory of good over evil, the establishment of justice at all times, breaking the chain of events with logical thinking, investigating crime and the traces of crime, finding and punishing the criminal, etc. such plots existed in literary examples in different periods. Over time, different writers started to create a new direction, both based on the literary heritage and diversifying these plots. As a result, detective literature began to form.

The foundation of detective prose in Azerbaijani literature was laid by Jamshid Amirov. The artistic works written by the famous writer Jamshid Amirov in this direction have become an important event of the era. In his works, the writer skillfully showed the truth of life and their characters with the behavior and speech style of the characters, boldly revealed the issues that made them think, and conveyed his views and concepts to the society through images. He created artistic examples of detective prose based on different and unique plots. These works are related to a single theme and idea-content and have original artistic style features.
In the article, the position of Jamshid Amirov in Azerbaijani literature, the main directions of his creativity, stylistic features of his works, themes and ideas were studied.
**Keywords:** writer, detective, prose, feature, literature

**Article history:** received – 12.01.2024; accepted – 26.01.2024

## Giriş / *Introduction*

Yeni ədəbi növün yaranması ictimai-tarixi dəyişikliklərə bağlı olan prosesdir və bədii fikrin əbədi hərəkətinin göstəricisidir. Ədəbiyyatda yaranan yeni meyillər, süjetlər, mövzular və s. dövrün sosial mühiti və psixoloji ab-havasından asılıdır. Ədəbiyyatşünaslıqda təkamül prosesi nəticəsində yeni növlər, janrlar, cərəyanlar yaranır, lakin hər bir yeni ədəbi hadisə keçmiş nəzəriyyə ilə bağlıdır, yəni o əvvəldən mövcud olan xüsusiyyətlərdir. Zaman keçdikcə formalaşaraq müxtəlif qəliblər formasında təzahür edir. Ədəbiyyat cəmiyyətin aynasıdır, hər bir dövr öz ədəbiyyatını yaradır. Azərbaycan ədəbiyyatında detektiv nəsrin genezisini və inkişafını izləyərək deyə bilərik ki, bu nəsr güclü köklərə malikdir. Azərbaycan söz sənətinin ilk nümunələri olan miflər, nağıllar, əfsanələr, dastanlar, tapmacalar, bütün insanlığın yaşam fəlsəfəsi olan və əsrlərdən bəri həyat düsturumuz olan atalar sözlərində şər qüvvələr ilə xeyir qüvvələr arasında mübarizə olmuş, pislik, haqsızlıq, cinayət, oğurluq və s. əxlaq kodeksinə mənfi təsir göstərən, cəmiyyətin tarazlığını pozan amillər pislənmiş işıqlı qüvvələrin qələbəsi ilə nəticələnmişdir. Bu mövzuda süjetlər daim ədəbiyyatımızda mövcud olmuş və zaman keçdikcə formalaşmışdır.

## Əsas hissə / *Main part*

Çoxəsrlik Azərbaycan ədəbiyyatının keçmiş olduğu təkamül prosesinin bir istiqamətini 1920-1960-cı illəri əhatə edən sosialist realizmi dövrü təşkil edir. 1920-60-cı illər Azərbaycan ədəbiyyatı milli həyatın məzmunu ifadə edir. Azərbaycan ədəbiyyatının sosialist realizmi dövründə bədii nəsr fəallığı ilə seçilən janrlardan olmuşdur. Əsrin əvvəllərindən Avropa və dünya prosesləri kontekstində milli oyanışı yaşayan Azərbaycan həyatı XIX əsrdən büsbütün qopub XX yüzilliyə epoxaya tuş gəlir və bədii nəsr bu hadisələrin xalqın varlığında, ictimai həyatında, məişətində, bütövlükdə mədəni səviyyəsində doğurduğu problemləri; insanların şüurunda, mənəviyyatında, davranış və xasiyyətində əmələ gətirdiyi təsir və dəyişmələri qeydə alır, bədii idraka can atır [4, s.75].

Bədii nəsrimizdə yeniliyə cığır açan müəlliflərdən biri də Cəmşid Əmirov olmuşdur. Yazıçı-publisist, jurnalist, ssenarist Cəmşid Əmirov (1918-1982) Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşmasında və təşəkkülündə özünəməxsus rolu olan sənətkarlardandır. Təxminən qırxillik yaradıcılıq dövründə oçerk, felyeton, hekayə, povest, roman janrlarında yazıb-yaratmışdır. Cəmşid Əmirovun detektiv nəsri dövrün mühüm ədəbi hadisəsinə çevrilmiş, əsərləri müxtəlif dillərə tərcümə olunmuşdur.

Cəmşid Əmirov altı yaşında Bakıda 32 nömrəli yeddiillik məktəbə daxil olmuş, məktəbi bitirdikdən sonra Nəriman Nərimanov adına Texnikumun kimya fakültəsinə daxil olaraq təhsilini





davam etdirmişdir. 1934-cü ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş və 1941-ci ildə bitirmişdir.

Müharibə illərində (1941-1945) Cəmşid Əmirov könüllü şəkildə cəbhə sıralarına yollanmışdır. Almaniya, Polşa, Avstriya, Çexoslovakiyada döyüşlərdə də iştirak etmiş, Vətən müharibəsi (I dərəcəli) və Qırmızı ulduz ordenləri, "Döyüşdə fərqlənməyə görə", "Köniqsberqin alınmasına görə", "Berlinin alınmasına görə", "Almaniya üzərində qələbəyə görə", "Yaponiya üzərində qələbəyə görə" medallarına layiq görülmüşdür. Sıravi əsgərdən əlahiddə batalyonun komandirinədək yol keçmiş, sonuncu hərbi rütbəsi qvardiya mayoru olmuşdur.

Görkəmli yazıçı 1946-cı ildə Sovet ordusu sıralarından təxris edildikdən sonra "Azərbaycan gəncləri", "Bakı", "Sovet ticarəti", "Azərbaycan neft təsərrüfatı" qəzetlərində yaradıcılıq fəaliyyətinə başlamış, müxtəlif oçerk, məqalələr, hekayələr dərc etdirmişdir. Yazıçının ilk mətbu əsəri "Dəqiqələr, saniyələr..." adlı oçerki "Azərbaycan gəncləri" qəzetinin 28 avqust 1946-cı il sayında dərc olunmuşdur. Azərbaycan mətbuatında ilk məhkəmə oçerki yazan jurnalistlərdən biri olmuşdur. C.Əmirov yaradıcılığının hər iki istiqamətində – həm jurnalist, həm də yazıçı olaraq uğurlu bir yol keçmişdir. Qəzetdə fəaliyyət göstərdiyi müddətdə oxucuların diqqətini daim cəlb etmiş, onlarla söhbətləşərək şikayətləri haqqında tənqidi məqalələr yazmışdır. Onun bəzi məqalələri "Bəbirov qardaşları" imzası ilə dərc olunmuşdur və məhz bu səbəbdəndir ki, redaksiyaya zəng edən oxucular – "Mənə Bəbirov lazımdır", – deyərək Cəmşid Əmirovu nəzərdə tuturdu. "Bakı" qəzetinin "Bədən tərbiyəsi və idman şöbəsi"nin müdiri olan C.Əmirov idman sahəsi istiqamətində maraqlı məqalələr yazmışdır. "Bakı" qəzetinin idman mövzusunu bütün qəzetlərdən daha geniş və maraqla işıqlandırılması, bununla da oxucu rəğbətini qazanması kimi gözəl ənənə məhz C.Əmirovun uğuru idi [2, s.67]. O, "Bakı" qəzetində çalışdığı müddətdə qəzetə oxucu marağını artırmaq üçün hüquq-mühafizə orqanları ilə yaxın əlaqələrindən istifadə edərək məhkəmə oçerklərini qələmə almışdır. Müəllif məhkəmə prosesində baxılmış cinayətləri araşdırmış, onlara aid oçerk və məqalələr, habelə irihəcmli əsərlər də yazmışdır. Məhz hüquq-mühafizə orqanları ilə əməkdaşlıq və hadisələrlə yaxından tanışlıq ədibdə detektiv əsərlər yazmağa həvəs yaratmışdır. Bu baxımdan ədibin məhkəmə sənədləri ilə tanışlığı hüquq-mühafizə orqanları ilə yaxından əməkdaşlığının nəticəsi idi ki, əsərlərində də bu faktlardan, detallardan istifadə etmişdir.

XX əsrin 50-60-cı illərində Cəmşid Əmirov maraqlı süjet xətlərinə malik əsərlər yazmışdır. O, ilk irihəcmli və Azərbaycan ədəbiyyatının ilk detektiv əsəri olan "Sahil əməliyyatı" povestini 1958-ci ildə "Azərbaycan" jurnalında dərc etdirmişdir. Povestin mövzusu Azərbaycan çekist və milis işçilərinin həyatından alınmış, onların həyata keçirdikləri əməliyyatlar, öhdəliklərinə götürmüş olduqları çətin və məsuliyyətli işi təsvir-təhkiyə predmeti olmuşdur. Əsər müəllifə böyük uğur gətirmiş və o, bundan sonra detektiv nəsrin mükəmməl örnəkləri sayılan "Şəhər yatarkən" (1960) və "Brilyant məsələsi" (1962) povestlərini, "Qara Volqa" (1965) romanını qələmə almışdır. "Şəhər yatarkən" povestində şəhərdə baş verən cinayətlər və cinayətkarların tapılmasında öz borcunu ləyaqətlə yerinə yetirən polis işçilərinin mütəşəkkil işindən bəhs edilir. Cəmşid Əmirovun oxucular tərəfindən böyük rəğbətlə qarşılanan əsərlərindən olan "Brilyant məsələsi" povesti və "Qara Volqa" romanında müəllif xüsusi cinayətkar qrup tərəfindən törədilmiş silsilə cinayətləri təsvir etmiş və polis əməkdaşlarının bu cinayətlərin istintaq prosesində göstərdikləri hünəri, çevikliyi əks etdirmişdir. Müəllifin əsərlərinin başlıca xüsusiyyəti onların aydın, axıcı təhkiyə üslubu, vahid mövzu və ideya-məzmuna bağlı olub orijinal bədii üslub xüsusiyyətlərinə malik olmasıdır. Bu əsərlər polis və casus detektiv mövzusunda qələmə alınmışdır. Müəllifin aydın və axıcı təhkiyəsi, faktların məntiqi təhlil metodu ilə təsviri, bəhs olunan hadisələr haqqında geniş və müfəssəl məlumata sahib olması əsərlərinin geniş oxucu kütləsi qazanmasına səbəb olmuşdur. C.Əmirovun detektiv əsərlərinin bəzilərində cinayət sadə və bir problematika ətrafında baş verir, digərlərində isə müxtəlif cinayətlər, məkan və zaman fərqliliyi, obrazların şaxəliliyi ilə seçilir. Məsələn, müəllif "Sahil əməliyyatı" povestində iki süjet xətti – İnqa Şmigelskayte və ailəsinin qətli, Mühəndis Əzimovun evinin qarət olunması, "Şəhər yatar-

kən" povestində bir süjet xətti – Təvəkkül Bədəlovun qətli, "Brilyant məsələsi" povestində isə üç süjet xətti – qəzet müxbiri Hüseyn Dadaşovun evinin qarət olunması, Əziz İslamovun və Laləzar İsmayılovun qətli, "Qara Volqa" romanında 3 süjet xətti – Revekka Solomonovna və Abram Lifşitsinin qarəti, Mübarək Novruzzadənin təqibi, falçı Pelageya Panteleyvnanın qətlinin törədilməsini qələmə almışdır.

Hər bir detektiv əsərin mahiyyətində üç sual durur: kim? kimi? niyə? Cəmşid Əmirovun əsərlərində də bu strukturu görmək mümkündür. Əsərin əvvəlində cinayət törədilir, ilk qurban görülür və oxucunun beyni üç sual ətrafında məntiqi təhlillər yürütməyə başlayır. Müəllifin yaradıcılığında önəm verdiyi xüsusiyyətlərdən biri də əsərlərində bütün fakt və detalları oxucu ilə yaxından tanış etməkdir. Bu oxucunun detektivlə yanaşı olaraq istintaqın gedişatında aktiv rolda çıxış etməsinə şərait yaradır. XIX əsrin görkəmli ingilis yazıçısı G.K.Chesterton "Bir detektiv hekayə necə yazılmalıdır" adlı məqaləsində qeyd edir: "Sirli hekayənin məqsədi bir sirr kimi qaranlıq deyil, işıqlı olmalıdır. Hekayə oxucunun başa düşdüyü an üçün yazılır. Anlaşılmazlıq yalnız o anlaşıqlılıq anının parlaqlığını ortaya çıxarmaq üçün buludun qaranlıq konturları kimi nəzərdə tutulur" [2, s.115].

Müharibə dövrü hekayələrinin əsas, aparıcı ideyası sovet döyüşçüsünün yüksək bəşəri keyfiyyətlərinin tərənnümü təşkil edir. Sovet ədəbiyyatı üçün tipik və səciyyəvi olan döyüşçü surəti vasitəsilə yazıçılarımız xalqı böyük tarixi vuruşlara, kütləvi fədakarlığa sövq edən amilləri, hər şeydən əvvəl sovet vətənpərvərliyi ideyasının həyati gücünü bütün dolğunluğu ilə əks etdirməyə çalışırdılar. C.Əmirovun yaradıcılığının ikinci mərhələsi XX əsrin 60-80-ci illərini əhatə edir. O, 1968-ci ildə "Tək əldən səs çıxar" povestini "Azərbaycan pioneri" qəzetində dərc etdirmişdir. 1969-cu ildə "Mənim əsl məhəbbətim" adlı romanını yaradıcılığının şah əsəri hesab etmişdir. Roman II Dünya müharibəsindən sonrakı illərdə Almaniyada çalışan azərbaycanlı çekistin həyatından bəhs edir. Müəllifin 1969-cu ildə bitirdiyi "Vətəndən uzaqlarda" adlı romanı isə Azərbaycan kəşfiyyatının yaranmasının 50 illik yubileyinə həsr olunmuşdur. Əsərin mövzusu Azərbaycan neftçilərinin Ukraynada faşist işğalçılarına qarşı mübarizəsindən bəhs edir. Bu əsərlərdə qələbənin, böyük çətinliklər və məhrumiyyətlər bahasına, xalqın fiziki və mənəvi qüvvələrin o vaxtadək görünməmiş gərginliyi hesabına əldə edildiyi realist bədii löhvələrdə ümumiləşdirilmişdir.

Yazıçı yaratmış olduğu obrazlar vasitəsi ilə ictimai həyatı, insanın daxili aləmini, həyata baxışını, arzu və düşüncələrini açmağa nail olur. Obraz müəllifin ideyalarının, bədii təfəkkürünün daşıyıcısıdır. C.Əmirovun yaratmış olduğu obrazları mənfi və müsbət olaraq iki qrupa ayırmaq mümkün deyil. O, təsvir etmiş olduğu obrazları mənfi olduğu üçün qaranlıq bir mühitə salmır, onun bu qaranlığa necə düşdüyünü oxucuya göstərir, müsbət qəhrəmanı ucaltmır, onların da səhvləri olduğunu qeyd edir. Müəllif əsərdə yaratmış olduğu dialoq və monoloqlar vasitəsilə obrazların daxili mənini, fərdi xüsusiyyətlərini diqqətə çatdırır. Şəxsiyyətin yetişməsində ailə və cəmiyyət faktorunu ön plana çıxararaq yaratmış olduğu obrazları psixoanalitik yolla şərh edir.

Cəmşid Əmirovun yaradıcılığına xas xüsusiyyətlərindən biri də əsərlərində ləqəblərdən geniş şəkildə istifadə etməsidir. Məsələn: Rıjı şofer – Volodya, Çolaq kişi – Ağayar, Balaca Oqtay – Oqtay Çingizov, Saşa – Aleksandr Denisov ("Sahil əməliyyatı"), Paxan və Zəli – Sübhanverdi, Uzun – Heydərəli, Professor – Mübarək Novruzzadə, Qozbel – Bürsəli, Pəncəli – Aslan ("Qara Volqa"), Tapança – Yədulla, Qızılbarmaq – Rantik ("Brilyant məsələsi") və s. Onun yaratmış olduğu hər bir obrazın öz dili, öz danışığı var. C.Əmirov nəsrinin özünəməxsus xüsusiyyətlərindən biri də bədii mətnin tipin dili ilə təhkiyə edilməsidir. Müəllifin obrazlarının nitqində arqo və jarqonlardan, dialekt sözlərindən istifadə etməsi bu səbəbdən irəli gəlir. Bu xüsusiyyət əsərin dilinin daha canlı və axıcı olmasını təmin edir. Əsərlərdə müxtəlif obrazlar detektiv rolunda çıxış edə bilər: hüquq-mühafizə orqanları, özəl detektivlər, qurbanın qohum və ya dostları və s. Cəmşid Əmirovun əsərlərində detektiv rolunda hüquq-mühafizə orqanının əməkdaşları yer alır.

Rus yazıçısı, publisist, filosof L.N.Tolstoya görə, hər hansı bədii əsəri tam vəhdət halına bağlayan bir vasitə varsa, o da sənətkarın təsvir obyektinə özünəməxsus mənəvi münasibətidir. Həqiqətən də Cəmşid Əmirovun yaradıcılığını şərtləndirən başlıca amillərdən biri də onun əsərlərində zəngin təsvirlərdən istifadə etməsidir. Obrazları, ətraf mühiti, hər hansı bir cansız əşyanı o qədər incəliyinə kimi təsvir edir ki, oxucunun gözündə həmin obraz, əşya canlanır.





Psixoloji motivlər detektiv əsərlərdə hərəkətverici qüvvə rolunu oynayır. Obrazların daxilindəki qısqanclıq, intiqam, nifrət və s. hisslər onları cinayətə təşviq edir. Müəllif şübhəli və cinayətkarların davranış və hərəkətlərini diqqətlə izləyir, onları cinayətə şövq edən psixoloji amilləri göz önündə saxlayaraq bəzən onların keçmişinə işıq salır, şübhəlilərin keçmişi haqqında, onların hazırkı vəziyyətinə təsir edə biləcək psixoloji amilləri axtarır. Cəmşid Əmirovun bədii yaradıcılığında qəhrəmanın psixologiyası, daxili aləminin ən dərin qatlarının işıqlandırılması, hiss və həyəcanının rəngarəng çalarlarla təsviri canlı və təbii şəkildə öz əksini tapmışdır. Müəllif həyatı öz məqsədləri, qavrayışları, ideologiyaları və dəyər mühakimələri ilə təmsil edir, təkcə hiss və emosiyalar oyatmaqla deyil, həm də onlara həyatın və varlığın mənasını kəşf etməkdə kömək etməklə oxuculara naməlum və görünməz dünyaların qapılarını açır. Cəmşid Əmirov psixologizmi özünü təhlil, fərdin psixologiyası, millilik, tarixlik və bəşərilik axarı ilə irəliləmiş, monoloq, dialoq, qəhrəmanların davranışı, xarakteri müstəvisində formalaşmışdır.

Ədibin əsərlərinin sonluğu hər zaman xeyirin şər üzərində qələbəsi ilə bitir. Cinayətkarlar sonda ədalət məhkəməsi qarşısında cəzalandırılır. Bu da detektiv nəsrin başlıca prinsiplərindən biri olub ədalətin həmişə qalib gələcəyindən xəbər verir.

**Nəticə / *Conclusion***

Azərbaycan detektiv nəsrinin görkəmli nümayəndəsi olan Cəmşid Əmirovun ədəbiyyatımızda rolu əvəzedilməzdir. Ədibin Azərbaycan ədəbiyyatında yaratmış olduğu ədəbi-estetik ənənələr özündən sonrakı nəsrimizin mövzu və ideya, sənətkarlıq cəhətdən formalaşmasına əsaslı təsir göstərmişdir.

**Ədəbiyyat / *References***

1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, I cild. – Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası, – 1980. – 592 s.
2. Chesterton, G.K. "How to write a Detective Story". The Chesterton Review 10.2 (1984): 111-118.
3. Əmirov, C. Sahil əməliyyatı – Bakı: Uşaqgəncnəşr, – 1958. – 263 s.
4. Əmirov, C. Qara Volqa – Bakı: Qanun, – 2017. – 417 s.
5. Əmirov, C. Brilyant məsələsi– Bakı: Azərnəşr, – 1963. – 327 s.
6. Əmirov, C. Şəhər yatarkən . – Bakı: Qanun, – 2017. – 263 s.
7. Dəmirli, D.Ə. Ata məhəbbət. – Bakı: – 2007. – 192 s.
8. Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası. – Bakı: Elm, – 2006. – 312 s.

## Джамшид Амиров как представитель детективной прозы

**Сайидниса Латифли**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: seyidnise.letifli@mail.ru

**Резюме.** Противоположности, существующие в мире, всегда находятся в состоянии единства. В основе всех противоречий лежат силы добра и зла. С момента основания человечества в обществе шла борьба между добрыми и злыми силами. Эта борьба была универсальной и доминировала в каждой цивилизации. Победа добра над злом, установление справедливости во все времена, разрыв цепи событий с помощью логического мышления, расследование преступлений и следов преступлений, поиск и наказание преступника и т.д. такие сюжеты существовали в литературных примерах разных периодов. Со временем

различные писатели, опираясь на литературное наследие и разнообразив эти сюжеты, стали создавать новое направление. В результате начала формироваться детективная литература.
Основу детективной прозы в азербайджанской литературе заложил Джамшид Амиров. Художественные произведения, написанные известным писателем Джамшидом Амировым в этом направлении, стали важным событием эпохи. В своих произведениях писатель умело показал правду жизни и характеров, поведением и речевым стилем героев, смело раскрывал проблемы, заставлявшие их задуматься, доносил до общества свои взгляды и концепции через образы. Он создал художественные образцы детективной прозы на основе разнообразных и уникальных сюжетов. Эти произведения связаны единой темой и идейным содержанием, имеют оригинальные художественно-стилистические особенности.
В статье изучено место Джамшида Амирова в азербайджанской литературе, основные направления его творчества, стилистические особенности его произведений, темы и идеи.
**Ключевые слова:** писатель, детектив, проза, особенность, литература